**Bir** yumruq, ürək, can



# İnsanseverliyimizin nümayişi

Təbii fəlakətlər həm də bir sınaqdır, imtahandır. Bəzən ən acı nəticələr vermiş böyük tələfatlara səbəb olmuş hadisələr insanların yaddaşında ömürlük unudulmayacaq xatirələr ilə də qalır. İnsanlar dostunu, düşmənini daha yaxşı tanıyır.

Doğru demişlər ki, dərdin üstə gedib mərd olarsan, dərddən qaçıb pərt olarsan. Türkiyədə dəhşətli fəlakət baş verən zaman birlikdə yeridik dərdin üstə. Təklif gözləmədən, soruşmadan tələsdik Türkiyəyə. "Dərdin dərdimizdir", - dedik. Bu faciəli günlərdə birliyimizi, gücümüzü, dərdi bölmək bacarığımızı, dərdə sahib durmaq qüdrətimizi gördü bütün dünya. Döyüşə gedərkən "Vətən sağ olsun", - deyən kişilərin övladları bu dəfə "Dövlət var olsun", - dedilər. Dünyanın ən aparıcı xəbər agentlikləri, televiziya kanalları bu iki dövlətin, bir millətin birliyindən danışdı bu günlərdə. Azərbaycandan gedən, yardım aparan maşın karvanları televiziya ekranlarında göstərildi, qəzetlərdə manşetə çıxardılıb tirajlandırıldı. Dəfələrlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, qardaş ölkənin millət vəkilləri, siyasət adamları, nazirləri tərəfindən Azərbaycan dövlətinə,






dövlətimizin başçısı İlham Əliyevə, Birinci xanım Mehriban Əliyevaya, bütövlükdə xalqımıza göstərilən diqqətə və qayğıya görə təşəkkür edildi. Sosial şəbəkələrdə azərbaycanlı yardımsevərlərin haqqında postlar paylaşıldı. Bu fəlakət öz böyüklüyü ilə dərdimizin, gücümüzün, sarsılamaz olan birliyimizin də əzəmətini göstərdi.

Azərbaycanlı gənc könüllülər fəlakət zonasına gedib ən təhlükəli yerlərdə xilasetmə işlərinə başlayıb, fədakarlıqlar etdilər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qəhrəmanmaraş şəhərində Azərbaycan könüllüləri ilə görüşü zamanı gənclərimizin fədakarlığını qiymətləndirdi, fikirlərini belə ifadə etdi: "Xoş gəldiniz, xoş gəldiniz. Maşallah. Azərbaycanlı qardaşlarımız".

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva gənclərimizə vətəndaşlıq, insanlıq borcunu yerinə yetirdikləri üçün minnətdarlıq məktubu ünvanladı.

Sağlam, vətənpərvərlik ruhunda böyüyüb, qanları ilə tarix yazan gənclərimizin məktəblərindən dərs alan Azərbaycan gəncləri isə Mehriban xanıma yazdıqları cavab məktublarında çox mühüm bir məqama toxundular: "Yaşanan ağır faciəyə möhtərəm cənab Prezidentin və Sizin həssas münasibətiniz, yardımla bağlı verdiyiniz göstərişlər biz gəncləri hədsiz qürurlandırmaqla yanaşı, öz insanseverliyimizi nümayiş etdirməyə şərait yaratdı".

Bəli, əsas məqam da budur. İnsanlarımız etdikləri yardımla, verdikləri dəstəklə sevgilərini göstərməyə çalışırdılar. Dərdə sahib olmaq istəklərini ortaya qoyurdular.

Türkiyəyə yol alan maşın karvanları adi yardım maşınları deyildi. Onlar sevgi, məhəbbət dolu hisslərimizi də aparırdılar. Dar gündə, xoş gündə bir olan qardaşlara. Allah bir də dərd verməsin.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 25 fevral.- S.7.